**UOT 327 (4/9)**

# BÖYÜK DÖVLƏTLƏRİN "ŞƏRQ MƏSƏLƏSİ" PLANI VƏ ERMƏNİLƏR

**Nigar QASIMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 20 iyun 2024; çapa qəbul edilmişdir: 24 iyul 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.

Received: 20th of June, 2024; accepted: 24th of July, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *Osmanlı, erməni təşkilatları, böyük dövlətlər, Şərq məsələsi, geosiyasət*

## Giriş

XIII əsrdə Anadoluda yaranmış, tezliklə İslamın bayraqdarına çevrilmiş Osmanlı imperatorluğu əsrlərlə üç qitədə hökm etmişdir. Yüzilliklər boyunca ən müxtəlif vasitələrlə Osmanlı dövlətinin timsalında türk-islam qüdrətinin qarşısını almağa çalışan Avropa dövlətləri və Rusiya çoxşaxəli fəaliyyət həyata keçirmiş, türk-islam dünyasında yaranmış olan müxtəlif qüdrətli imperatorluqları və dövlətləri çökdürmək üçün strategiyalar müəyyənləşdirmişlər. Bu məsələdə daha çox köhnə qitə adlandırılan Avropanın simasında XIX əsrdən sonra "böyük dövlətlər" və ya "böyük güclər" adlandıra biləcəyimiz dövlətlər hərbi gücdən, humanitar vasitələrdən, diplomatik missiyalardan və digər üsullardan istifadə etmişlər. Tarixi proseslərə nəzər saldığımız zaman Avropa dövlətlərinin qüdrətli müsəlman-türk dövlətlərinə qarşı tətbiq etdiyi iki məkrli xətti müəyyənləşdirmək mümkündür:

1. Eyni və yaxud oxşar mədəniyyətlərin, milli və dini kimliklərin daşıyıcısı olan imperiyaları toqquşdurmaqla "Şərq təhlükəsi"ndən xilas olmaq;

2. Qüdrətli müsəlman-türk dövlətlərinin təəbəsi kimi əsrlər boyunca yaşamış və bu dövlətlərin yaratdığı imkanlardan bəhrələnmiş qeyri-müsəlman və qeyri-türk xalqlarının bu dövlətlərə qarşı qaldırmaq və onlardan təsir və təzyiq aləti kimi istifadə etmək.

## 1. Şərq məsələsinin mahiyyəti

Məlumdur ki, tarixdə yaranmış ən qüdrətli müsəlman-türk dövlətlərindən biri kimi xarakterizə edə biləcəyimiz Osmanlı əsrlərlə Avropanın dünya ağalığı iddiasına düşən dövlətlərinin qorxulu yuxusu olmuşdur. Osmanlı dövlətinin zəiflədilməsi və süqutunun sürətləndirilməsi üçün onun düşmənlərinin istifadə etdikləri ən güclü və təhlükəli vasitə isə şəksiz ki, bu dövlətin təəbəliyində əsrlər boyunca əmin-amanlıqda yaşamış qeyri türk toplumlarının Osmanlı imperatorluğuna qarşı qaldırılması olmuşdur.

Tədqiqata cəlb etdiyimiz erməni məsələsi Osmanlı dövlətinin zəiflədilməsini nəzərdə tutan "Şərq məsələsi"nin tərkib hissəsi kimi yaranmış və onun həyata keçirilməsi üçün vasitə rolunu oynamışdır [6, s. 11]. "Erməni məsələsi" adlandırılan məsələnin meydana gəlməsini təsadüfi hesab etmək olmaz. Müasir beynəlxalq münasibətlərdə məsələnin yerini nəzərə alaraq bu problemə yenidən diqqət yetirməyə ehtiyac vardır. Çünki 30 ildən artıq müddətdə dünyanın əsas münaqişə ocaqlarından biri hesab edilən "Qarabağ məsələsi" mahiyyətcə "erməni məsələsi"nin, "erməni məsələsi" isə öz növbəsində "Şərq

*magistrant, Bakı Avrasiya Universiteti
*e-mail:* nigar_cahan@mail.ru
DOİ: https://doi.org/10.30546/25194011.2024.13.4.020

məsələsi"nin bir hissəsidir. Bu baxımdan "erməni məsələsi"ndən bəhs etməzdən öncə, qısaca da olsa "Şərq məsələsi" anlayışının nəyi ifadə etdiyini aydınlaşdırmaq zəruridir.

Mahiyyətcə "Şərq məsələsi" Osmanlı imperiyasının torpaqlarının bölüşdürülməsi, Şərqə yiyələnmək uğrunda Rusiya və Avropa dövlətləri arasında beynəlxalq ziddiyyətlərin ifadəsi idi. Rusiyanın məqsədi Böyük Britaniya və digər Avropa dövlətlərinin Asiyada nəzarət etdiyi ərazilərə doğru irəliləmək və özünə zəngin təbii sərvətlərə malik olan müstəmləkələr qazanmaq idi. Şərqdə öz təsir dairəsini qorumaq və genişləndirmək, Rusiyanın cənuba-isti dənizlərə doğru irəliləməsinin qarşısını almaq məqsədilə İngiltərə və Qərbi Avropa dövlətləri Şərqdəki qüdrətli türk dövlətlərinə müxtəlif formalarda yardım göstərirdilər. Məqsəd onları Rusiya ilə müharibəyə qaldırmaqla sürətlə genişlənməkdə olan bu imperiyanın Qafqaz və Orta Asiya ölkələrinə doğru irəliləməsinin qarşısını almaq idi. Lakin tarixi proseslərin gedişatı həm də onu sübut edir ki, Avropa dövlətləri Rusiya ilə paralel olaraq Osmanlı dövlətinin də yenidən əvvəlki qüdrətini qaytarmasını istəmirdilər. Osmanlıya zahirən kömək göstərmələrinə baxmayaraq, geniş və zəngin sərvətlərə malik olan bu imperiyanın çöküşünü də hazırlayırdılar.

"Şərq məsələsi" Rusiyanın və Avropa dövlətlərinin yeni dünya nizamını müəyyən etdikləri 1815-ci ildə Vyana Konfransında xüsusi bir məsələ kimi müəyyənləşdirilmiş və adı qoyulmuşdur [9, s. 145]. "Şərq məsələsi"nin əsasını Osmanlı dövlətini parçalamaq və onun ərazilərini bölüşdürmək planı təşkil edirdi.

Geosiyasi baxımdan rəqib olan Avropa dövlətləri və Rusiyanın mövqeyi üst-üstə düşməyə başlamışdı. Osmanlının bölüşdürüləcəyini görən Rusiya ortodoks xristianlığının daşıyıcısı kimi Bizansa varislik iddialarını ortaya qoyurdu. Məqsəd keçmişdə Bizansın paytaxtı olmuş İstanbulu (Konstantinopol) ələ keçirməklə boğazlara nəzarət etmək idi. Sonrakı dövrlərdə beynəlxalq münasibətlərdə aktuallaşan boğazlar məsələsi də bu varislik iddiası ilə meydana əsaslandırılırdı [8, s. 408].

Beləliklə, türklərin müsəlman olması və daha sonralar xəlifəliyi də əllərinə almasıyla İslam dünyasının mirasında oynadıqları rol nə idisə, rusların da xristianlığı qəbul etmək və Bizansın varisi olmaq iddiasıyla xristianlığın provaslav aləmində oynadıqları rol eyni olmuşdur. Özlərini pravoslavların və slavyanların xilaskarı olaraq görməyə başlayan ruslar Bizansdakı provaslavlığın mərkəzi olan İstanbulun müsəlman türk hakimiyyəti altında idarə olunmasına heç bir şəkildə razı ola bilmirdi [1, s. 36].

Bu baxımdan çar Rusiyasının həm Anadoluda, həm də Qafqazda xristian himayəçisi kimi görünmək cəhdləri təsadüfi olmamışdır. Xatırlamaq lazımdır ki, hələ 1722-1723-cü illərdə I Pyotr Qafqaz yürüşündə bu amildən yararlanmış, Qafqazda olan xristianlardan bir çox şəhərin ələ keçirilməsi zamanı məharətlə istifadə etmişdi. Məhz bu zaman Qərbi Avropa ölkələri və xüsusilə, İngiltərə Osmanlı sultanı III Əhmədə Pyotrun Qafqazda millətlərdən istifadə planının mahiyyətini izah etmiş və onu öz qoşunlarını Cənubi Qafqaza yeritməyə vadar etmişdilər [7, s. 51].

Beləliklə, "Şərq məsələsi"nin həyata keçirilməsi üçün yeni-yeni vasitələr axtarılarkən "erməni məsələsi" meydana çıxmışdır. Tarixə nəzər salsaq görərik ki, oğuz türklərinin ermənilərlə ilk ünsiyyətləri 1026-cı ilə təsadüf edir. Həmin ildə Çağrı bəyin Anadolu torpaqlarına daxil olması ilə tarix ilk türk-erməni münasibətlərinə şahidlik etmişdir. Səlcuqi dövlətinin Bizansı məğlub edib Anadoluya hakim olmasından sonra ermənilər türk-oğuzların hakimiyyətini qəbul etmişlər. Osmanlı dövləti qurulduqdan sonra isə ermənilər bu dövlətin tabeliyinə keçmişlər. Erməni dini idarəçiliyi əvvəlcə Kütahyaya, 1324-cü ildə Bursaya, 1453-cü ildə İstanbulun fəthindən sonra isə İstanbula köçürülmüşdü. İstanbulda Erməni patriarxlığı Osmanlı sultanı Fateh Sultan Mehmet tərəfindən qurulmuşdur. Osmanlı dövlətinin yüksəliş dövrlərində ermənilər özlərini onun sadiq təbəələri kimi göstərmişlər. Dövlətin zəiflədiyi dövrdə isə imperialist dövlətlərin təhriki ilə Osmanlının Şərq vilayətləri

hesabına müstəqil Ermənistan yaratmaq iddiasına düşmüşlər. Osmanlı imperatorluğu ermənilərə bütün dövrlərdə öz daxili işlərində və dinlərində sərbəst idarəçilik hüququ vermiş, onların özlərinə məxsus məktəblərdə təhsil almalarına, öz aralarındakı mübahisəli məsələləri özlərinin həll etməsinə heç bir maneə törətməmişdir.

**2. ABŞ-da erməni təşkilatlarının mövqeyi və hakimiyyətə təsir formaları**

İstər müstəqillik istərsə də SSRİ dövründə ABŞ-da bir çox erməni təşkilatları fəaliyyət göstərmişdir. Bu təşkilatların fəaliyyətində erməni, amerikan və başqa millətlərdən olan insanlar fəaliyyət göstərir. Təşkilatların əsas məqsədləri erməni xalqını qorumaq, ABŞ-Ermənistan əlaqələrini gücləndirmək və bu əlaqələri daha da inkişaf etdirməkdir. Bu təşkilatlara ANCA (Amerika Erməni milli komitəsi), Armenian Assembly of America (Amerika Erməni Assambleyası), ACAA (Amerika Erməni Mədəniyyəti Assosiasiyası) və başqaları daxildir. Bu təşkilatlar əlaqələr ilə yanaşı ilin fərqli vaxtlarında yardım kompaniyaları təşkil edir və yığılan pulları Qarabağ ermənilərinə, həmçinin başqa yerlərə xərcləyirlər. Təşkilatların bir neçəsi Ermənistanın müstəqillik dövründən əvvəl yaransa da, ABŞ-ın Ermənistan ilə rəsmi diplomatik əlaqələri 1992-ci ildə Sovet İttifaqından müstəqillik əldə etdikdən sonra qurulub. Birləşmiş Ştatlar Ermənistana demokratik institutları gücləndirməkdə, eyni zamanda davamlı və inklüziv iqtisadi artımı dəstəkləməkdə kömək etmək öhdəliyi götürür. Birləşmiş Ştatlar ATƏT-in Minsk Qrupunun həmsədrləri vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin davamlı və davamlı siyasi həllinə nail olmaq və regional sabitlik, sülh və rifahı təşviq etmək səylərini qətiyyətlə dəstəkləyir. ABŞ hökumətinin Ermənistana yardımı Ermənistanın Qərb institutları ilə əlaqələrini gücləndirmək, ölkəni regional və qlobal iqtisadiyyata inteqrasiya etmək, ticarəti diversifikasiya etmək və xarici təzyiqlərə qarşı dayanıqlılıq yaratmaq səylərini dəstəkləyir. ABŞ yardımı, xüsusilə 2018-ci ildə hakimiyyətin sülh yolu ilə keçidi fonunda demokratik institutların inkişafı və davamlı iqtisadi inkişaf üçün mühitin yaradılması istiqamətində Ermənistan hökumətinin səylərini dəstəkləyir. ABŞ-Ermənistan münasibətləri təkcə diplomatik tərəfdən deyil, həm də iqtisadi, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və başqa yönlərdə də inkişaf etmişdir. ABŞ və Ermənistan arasında ticarət və investisiyaya təsir edən bir sıra sazişlər, o cümlədən Ticarət və İnvestisiya Çərçivə sazişi, Ticarət Münasibətləri haqqında saziş, İnvestisiyaların Təşviqi müqaviləsi, İkitərəfli İnvestisiya müqaviləsi və Elm və Texnologiya Əməkdaşlığı haqqında saziş var. İki hökumət əməkdaşlığın qarşılıqlı sahələrini müzakirə etmək üçün ABŞ-Ermənistan Strateji Dialoqunu çağırır. ABŞ-ın Ermənistana sərmayələri enerji, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm, xalça və mebel istehsalı, tikinti, içki qablaşdırma, zərgərlik, tekstil istehsalı və mədənçıxarma ilə bağlı müxtəlif layihələrə yönəldilib. Ermənistan Ümumiləşdirilmiş Preferanslar Sistemi (GSP) proqramı çərçivəsində benefisiar ölkə kimi müəyyən edilib və bu proqram çərçivəsində Ermənistandan ixrac edilən bir sıra məhsullar ABŞ-a rüsumsuz giriş hüququna malikdir. GSP proqramı investorları Ermənistanda istehsal etmək və seçilmiş məhsulları ABŞ bazarına rüsumsuz ixrac etmək üçün stimul verir. Ermənistan və ABŞ Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və Ümumdünya Ticarət Təşkilatı da daxil olmaqla bir sıra eyni beynəlxalq təşkilatların üzvüdür. Ermənistan Amerika Dövlətləri Təşkilatında müşahidəçidir. Ermənistan Şimali Atlantika Müqaviləsi Təşkilatının Sülh Naminə Tərəfdaşlıq proqramında da iştirak edir [5].

Həmçinin Ermənistan ABŞ-ın Azərbaycana tətbiq etdiyi 907-ci düzəlişin yenidən aktivləşdirilməsinə çalışır. 1992-ci ildə ABŞ konqresi tərəfindən qəbul edilən Azadlığa dəstək aktı haqqında düzəlişdə ABŞ-ın Azərbaycana bir başa yardım qadağan edən düzəliş qəbul edilmişdir. Bu düzəlişin qəbulunda erməni lobbisinin böyük əməyi olmuşdur. Bu qanunun qəbulu ilə Azərbaycan ABŞ-dan bir başa yardım almayan yeganə postsovet

dövləti olmuşdur. Lakin senat bu düzəlişi 2001-ci il 24 oktyabr tarixində dondurmuşdur. Bunun səbəbi isə 2001-ci ildə ABŞ-da baş verən terror hadisəsindən sonra əl-Qaidə terror qruplaşması ilə mübarizədə Azərbaycanın ABŞ tərəfindən dəstəyi və köməyi olmuşdur. Ümumilikdə isə ABŞ-Ermənistan münasibəti müasir dövrdə olduqca sürətlə və çox şaxəli şəkildə inkişaf edir. II Qarabağ müharibəsindən sonra isə Ermənistan ABŞ ilə əlaqələrə daha çox önəm verdi. Bir növ ABŞ meylli siyasət aparmağa başladı. Bu da regionda olan güc bölgüsünün, həmçinin regionun gələcək taleyinin dəyişməsinə zəmin yaradır. ABŞ-da yaşayan erməni əhalinin çox olması sözsüz ki, onların lobbilərinin də güclü olmasına əsas verir. ABŞ-dakı erməni lobbisinin əsas məqsədləri, "erməni soyqırımını" tanıtmaq, ABŞ-Ermənistan əlaqələrini gücləndirmək və erməni diasporasının maraqlarına uyğun olaraq ABŞ-ın xarici siyasətinə təsir etməkdir.

Amerika Erməni Milli Komitəsi (ANCA) rəsmi mənbələrə əsasən, 1918-ci ildə fəaliyyətə başlamışdır. O zamanlar adı fərqli olsa da, ANCA adı ilə 1941-ci ildən fəaliyyətə başlayıblar. Qərargahı Vaşinqton şəhərində yerləşir. Rəsmi dilləri; ingilis və erməni dilidir. ANCA ən böyük və ən nüfuzlu erməni Amerika yerli siyasi təşkilatıdır. Təşkilatın Birləşmiş Ştatlarda və bütün dünya üzrə bir sıra ofislər, şöbələr və şəbəkələri var. Bütün bunlar təşkilatın geniş imkanlara malik olmasına imkan verir:

- ANCA-nın məqsədləri və fəaliyyətləri;
- Azad, vahid və müstəqil Ermənistanı dəstəkləmək üçün ictimai məlumatlılığı artırmaq;
- Erməni Amerika icmasını maraqlandıran məsələlərdə ABŞ siyasətinə təsir göstərmək və istiqamətləndirmək;
- İcma və onların seçilmiş rəsmiləri arasında əlaqə rolunu oynayarkən, ictimai siyasət məsələlərinə dair kollektiv erməni amerikalı baxışını təmsil etmək;
- Ermənistanın təhlükəsiz, firavan və demokratik dövlət kimi gücləndirilməsi kimi Amerika erməni icmasını narahat edən məsələlərlə bağlı qanunvericilik təşəbbüsü;
- Dağlıq Qarabağın təhlükəsiz sərhədlər daxilində öz müqəddəratını təyinetmə;
- İqtisadi və demokratik inkişafı təşviq etmək üçün ABŞ-ın Ermənistana yardım səviyyəsinin artırılması;
- Dağlıq Qarabağa birbaşa ABŞ yardımının təmin edilməsi;
- "Erməni Soyqırımının" layiqincə anılmasının təmin edilməsi;
- Türkiyə və Azərbaycanı blokadaları aradan qaldırmağa, insan hüquqları və humanitar təcrübələrə dair beynəlxalq standartlara riayət etməyə təşviq etmək [1].

Həmçinin təşkilatın siyasətində ABŞ-da qaldırdığı bir sıra məsələlər də vardır. Bu məsələlər siyasət, prioritet və nəticələri olmaqla 3 yerə bölünür. Qondarma "Dağlıq Qarabağ" rejimi məsələsi ilə guya Azərbaycanın təcavüzünə meydan oxuyan təşəbbüslər, birbaşa ABŞ yardımını ayırmaq və ATƏT-in Minsk Qrupunun münaqişənin həlli istiqamətində səylərini dəstəkləməklə qondarma "Dağlıq Qarabağ" rejiminin təhlükəsizliyi və rifahı üçün prinsipcə, siyasət və praktikada artan ABŞ dəstəyi yaratmaqdır. Qondarma "Dağlıq Qarabağ" rejiminin – Azərbaycan statusu və təhlükəsizlik məsələləri də bir başqa faktordur.

Bu məsələnin *prioritetləri* isə ABŞ Nümayəndələr Palatasının ikitərəfli ABŞ-qondarma "Dağlıq Qarabağ" rejimi Səyahət və Əlaqə Qətnaməsinin qəbulu, konqresin nümayəndə heyətlərinin və qondarma "Dağlıq Qarabağ" rejiminin Vaşinqtona müntəzəm səfərləri, ABŞ qondarma "Dağlıq Qarabağ" rejiminin bütün ATƏT və digər sülh danışıqlarına tam və rəsmi qayıtmasına dəstək verməsi, ABŞ hərbi texnikasının və ya texnologiyasının Azərbaycana birbaşa və ya üçüncü şəxs tərəfindən satışına/köçürülməsinə ABŞ-ın qadağası, ABŞ Azərbaycanın ÜTT-yə namizədliyinə, GSP-yə uyğunluğuna və Bakının Ermənistana və ya qondarma "Dağlıq Qarabağ" rejiminə blokadaları, boykotları və ya hücumları olduğu müddətdə hər hansı güzəştli ticarət və ya vergi rejiminə qarşı olması,

Kaliforniya, Corciya, Havay, Luiziana, Massaçusets, Men, Miçiqan və Rod-Aylendin qondarma "Dağlıq Qarabağ" rejiminin dövlət səviyyəsində tanınması; Bu məsələnin *nəticələri* isə bunlardır: İkitərəfli səfərləri həvəsləndirmək və asanlaşdırmaqla və ABŞ-qondarma "Dağlıq Qarabağ" rejimi ilə Səyahət və Kommunikasiya Qətnaməsinə ikitərəfli dəstək yaratmaqla ABŞ-qondarma "Dağlıq Qarabağ" rejimi əlaqələrinə maneələri qırması, qondarma "Dağlıq Qarabağ" rejiminin liderlərinin iştirak etdiyi Capitol Hill tədbirlərinin uğurunu dəstəkləməsi.

1998-ci maliyyə ilində xarici yardım haqqında qanun layihəsində qondarma "Dağlıq Qarabağ" rejiminə birbaşa ABŞ yardımına rəhbərlik etmişdir. ABŞ bölgəyə sağlamlığı, təmiz su və minaların təmizlənməsi ilə bağlı birbaşa və ən çox yardım göstərən yeganə ölkədir. Azadlığa Dəstək Aktının (1992) Azərbaycandan "Ermənistan və Dağlıq Qarabağa qarşı bütün blokadaları və digər hücum xarakterli güc tətbiqlərini dayandırmaq üçün nümayişkaranə addımlar atmasını" tələb edən 907-ci Bölmənin qəbulu dəstəklənməsi, Mett Brayzanın Azərbaycan yönümlü mövqeyinə görə Azərbaycanda səfir vəzifəsinə təyin olunmaması (2010), dəmir qübbə silah sisteminin İsrailin Azərbaycana potensial satışını (2017) əngəlləmək üçün siyasi, siyasi və hüquqi yollardan istifadə etməsi, Kaliforniya, Corciya, Havay, Luiziana, Massaçusets, Men, Miçiqan və Rod-Aylend tərəfindən Artsax Respublikasının dövlət səviyyəsində tanınması üçün çalışmasıdır [2]. Təşkilatın ABŞ-Ermənistan əlaqələri ilə bağlı olan məsələsinin siyasəti ABŞ-Ermənistan strateji tərəfdaşlığını təkmilləşdirmək – ticarətin genişləndirilməsi, yardımın artırılması, qarşılıqlı faydalı siyasi, iqtisadi, təhlükəsizlik, hərbi və sülhməramlı əməkdaşlığın daha da inkişaf etdirilməsi və dövlət/hökumət başçısı səviyyəsində ikitərəfli səfərlərin tezliyinin artırılmasından ibarətdir.

ANCA təşkilatının bu məsələdə prioritetləri isə yüksək səviyyəli, ikitərəfli icra/ qanunverici ABŞ-Ermənistan dialoqunun əsas nəticələrə uyğunlaşdırılması, ikitərəfli sülh və müdafiə əlaqələrinin gücləndirilməsi, həmçinin sülhün qorunması və potensialın gücləndirilməsinə yönəldirilməsi, Ermənistana qarşı regional sanksiyaların yersiz, düzgün olmayan və ya gözlənilməz nəticələrinin qarşısını almaq üçün fəal iştirak, yeni sərmayələri və şəffaflığı təşviq edən yeni ABŞ-Ermənistan ikiqat vergi müqaviləsinin imzalanması, karyeralarını ABŞ və Ermənistan arasında bölüşdürən işçilər üçün pensiya öhdəliklərini və hüquqlarını aydınlaşdırmaq üçün ABŞ-Ermənistan sosial təminatının ümumiləşdirmə müqaviləsinin imzalanması, strateji dialoq və TİFA görüşlərindən maksimum istifadə, Los-Anceles-Yerevan arası fasiləsiz ticarət və yük uçuşları, texniki yardım, maddi yardım və borcların bağışlanması yolu ilə Ermənistanın sürətlə meşələrin qırılmasının qarşısını almaq üçün ABŞ dəstəyindən ibarətdir.

Təşkilatın bu məsələdə olan nəticələri isə bunlardan ibarətdir:

✓ ABŞ-ın Ermənistana demokratiya yardımını 40,000,000 dollar artıran Speier Düzəlişinin (2019) Nümayəndələr Palatasından keçməsi;

✓ ABŞ-ın Ermənistana investisiyalarının artmasına mane olan süni maneələri aradan qaldırmaq üçün ABŞ-Ermənistan arasında İkiqat Vergi Müqaviləsi üçün Konqres, korporativ və icma dəstəyinin yaradılması.

Kənd yolları və suvarma üçün ABŞ-Ermənistan İqtisadi İşçi Qrupunun (1999), ÜTT-yə üzvlük (2003), Daimi Normal Ticarət Əlaqələri Statusunun (2005) və Minilliyin Çağırışı Kompaktının (2006) yaradılması dəstəkləndi. Ermənistana qarşı regional sanksiyaların (Rusiya, İran və Suriya ilə bağlı) lazımınca yerinə yetirilməməsinə çalışan xarici maraqlara qarşı mübarizə aparıldı. Ermənistanın İraq, Əfqanıstan, Livan, Kosovo və Malidə ABŞ/NATO-nun başçılıq etdiyi sülhməramlı əməliyyatlarda iştirakı ilə bağlı məlumatlı qərar qəbul edildi.

Los-Anceles-Yerevan arası fasiləsiz kommersiya uçuşlarına istehlakçıların marağını ölçmək üçün bazar sorğusu keçirildi. ABŞ yardımı və borcların bağışlanması yolu ilə

meşələrin qırılmasının qarşısını almaq və yerli meşələri bərpa etmək üçün Haiti və Ermənistan Meşələrin Bərpası Aktını dəstəklədi [3].

Həmçinin ANCA təşkilatının ermənilər və Ermənistan üçün dəstək fondu haqqında məlumatda belə yazılıb: Bir əsrdən artıqdır ki, ANCA və bizim sələf təşkilatlarımız vasitəsilə erməni amerikalılar Ermənistanın azadlığı uğrunda mübarizənin ön cəbhələrində xidmət ediblər. Bu gün bu qürurverici irsə əsaslanaraq, biz "Erməni Soyqırımı" üçün ədalət, qondarma "Dağlıq Qarabağ" rejiminin təhlükəsizliyi, ABŞ-Ermənistan münasibətlərinin gücləndirilməsi və Yaxın Şərqdəki erməni icmalarımız üçün təhlükəsizliyin tərəfdarıyıq. Sizin maliyyə dəstəyinizlə biz daha effektiv şəkildə irəliləyə bilərik – erməni xalqının düşmənlərinə qarşı mübarizə apararaq və gələcək nəsillər üçün daha parlaq erməni gələcəyi naminə bir-birimizlə əməkdaşlıq edə bilərik. İstər indi, istərsə də sonra vermək, birdəfəlik hədiyyə etmək və ya aylıq ianə etmək, yaxud bizim vəkilliyimizi və ya təhsil proqramlarımızı dəstəkləməyi üstün tutmağınızdan asılı olmayaraq, seçim sizin ixtiyarınızdadır. Təşkilatın yardım bölməsində hər hansı bir sual yaranan zaman nömrə ilə əlaqə saxlamaq, həmçinin mail ilə əlaqə saxlamaq mümkündür. Təşkilata olan ianələr təşkilatın dövlət departamenti və digər administrasiya rəsmiləri ilə yaranan əlaqələrini gücləndirir. Üstəlik ANCA-ya olan ianələr vergidən azaddır [4].

Nerses Semeryan Amerika Erməni Milli Komitəsinin (ANCA) Vaşinqtonda yerləşən milli qərargahının Texnologiya və İnnovasiyalar üzrə Baş Direktoru təyin edilib. Təşkilatın İnformasiya Texnologiyaları üzrə Direktoru vəzifəsində işlədiyi müddətdə o, geniş çeşidli innovativ alətlər və texnologiyaların erkən tətbiqi kimi ANCA-nı ardıcıl olaraq qabaqcıl səviyyədə saxlamışdır. ANCA-ya qoşulmazdan əvvəl Semeryan Forbes 500 şirkətində biznes həlləri üzrə mühəndis kimi çalışıb. ANCA sədri onun haqqında bunları qeyd edib: *"Nerses Semerjian fenomenal yenilikçidir, bizim istəklərimizi səsləndirən və vəkillik prioritetlərimizi irəliyə aparan maraqlı yeni texnologiyalardan istifadə edir"*. Lakin XX əsrin 20-90-cı illərində "erməni məsələsi" ABŞ-ın müxtəlif istiqamətli maraqlarının təmin edilməsi üçün əhəmiyyətini heç də tam itirmədi, məsələnin "aktuallığını" qoruyub saxlamasında Amerikadakı erməni terror-siyasi təskilatlarının xüsusi xidmətləri olmuşdur. Onların üzvlərinin bir çoxu vaxtilə Osmanlıda cinayət törətmiş ermənilər idi.

## Nəticə

Beləliklə, 1774-cü ildə imzalanan Kiçik Qaynarca müqaviləsi ilə Çar Rusiyasına "Osmanlı torpaqlarındakı xristian təbəələrin qoruyuculuğu" haqqının tanınması ilə hazırlanan, 1851-ci ildə imzalanan Paris müqaviləsi ilə Krım müharibəsinin qalibi Osmanlı dövlətinin həm avropalı müttəfiqləri, həm də müharibənin məğlubu Rusiya qarşısında "qeyri-müsəlman təbəə üçün lazımi islahatları həyata keçirmək" öhdəliyini götürməsi ilə təməli qoyulan, 1878-ci il Berlin Müqaviləsi ilə Osmanlı dövlətinin "Şərqi Anadoluda həyata keçirəcəyi islahat və asayiş tədbirlərinin icrasına digər dövlətlərin nəzarət edəcəyini" qəbul etməsi ilə birlikdə faktiki olaraq reallaşdırılmağa başlanılan "Erməni məsələsi" Anadoluya və Qafqaza böyük bəlalar gətirdi. Başlanğıc etibarilə Rusiya, sonradan isə Böyük Britaniya və Fransa tərəfindən dəstəklənən, şişirdilən bu məsələ sonralar ABŞ-ın əlində təsir alətinə çevrildi. Hətta bu ölkələr yürütdükləri bölüşdürməçilik siyasətinin təbii bir nəticəsi olaraq meydana çıxan "erməni hamiliyini" humanist motivlərlə bəzəyərək öz ölkələrinin sadə insanlarını və xalqlarını da bu yalanlara inandırdı. Bu dəstəkdən güc alan ermənilər isə öz növbələrində bir-birinin ardınca üsyanlar etmiş, terror planlarını genişləndirmişlər. Ermənilərin I Dünya müharibəsinin əvvəllərində törətdikləri qətliamların və düşmənlə faktiki olaraq iş birliyinə getmələrinin qarşısını almaq üçün Osmanlı dövləti 27 may 1915-ci il tarixində köçürmə ilə bağlı "Köç qanunu" qəbul etmiş və onu həyata keçirməyə başlamışdır [10]. Köçürmə dövründə guya qətliamın baş verməsi ilə bağlı iddialar irəli sürən Avropa dövlətləri, ABŞ və Rusiya bütün XX əsr boyunca məsələdən

Türkiyəyə qarşı təhdid vasitəsi kimi istifadə etməyə çalışmışlar. Bəs, bu iddialar nə qədər gerçək idi?! Ümumiyyətlə, tarixdə belə bir qətliam olmuşdumu?! Bu suallar ritorikdir. Tarixi və faktoloji materiallar bunu təsdiq etmir. Lakin "erməni məsələsi"ndən saxta "erməni soyqırımı"na necə baş verdiyini təhlil etmək zəruridir.

## ƏDƏBİYYAT

1. Arif (Şıxəliyev) E. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində, Bakı: Elm və təhsil, 2011, 324 s.
2. Azəri N. Erməni terroru tarixdə və bu gün... // Yeni Azərbaycan, 2012, 11 sentyabr, s.6.
3. BMT-nin "Soyqırım cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" 9 dekabr 1948-ci il tarixli Konvensiyası / Erməni cinayətləri. Soyqırım, Deportasiya, Terror, 2021. (https://genocide.preslib.az/az_s17.html).
4. Cəbrayılov R. Ermənistanın qondarma "soyqırımı" iddiaları iflasa məhkumdur // Azərbaycan, 2010, 23 aprel, s. 3.
5. Erməni informasiyası və həqiqət / Azərbaycan qəzeti, 2012, 24 aprel. (https://www.azerbaijan-news.az/index.php/posts/detail/ermeni-mifomaniyasi-ve-heqiqet-9497).
6. İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində, Bakı: Elm, 2006, 696 s.
7. Kəlbizadə E. Cənubi Qafqazda milli münaqişələrdən mümkün istifadə planları və regionda marağı olan dövlətlərin mövqeyi // Naxçıvan: AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalı, cild 9, 2013, №1, s. 51.
8. Kocabaş S. Kuzeyden Gelen Tehdit: Tarihte Türk –Rus Mücadelesi, İstanbul: Vatan Yayınları, 1989, 408 s.
9. Ramazan T. Ermeni Meselesinin Ortaya Çıkışı ve Mahiyeti // Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi, 2004, №14, s. 143-163.
10. Tehcir ve İskana Dair Geçici Kanun // Açıkarşiv, Mart 26, 2017. (www.acikarsiv.ankara.edu.tr)

***Резюме***

***Нигяр Гасымова***

***План великих государств «Восточный вопрос» и Армяне***

От истории до настоящего времени «Восточный вопрос» был основной концепцией османской и турецкой политики великих государств. Армяне, сыгравшие роль инструмента в реализации «Восточного вопроса», и сегодня находятся в планах различных государств. С этой точки зрения актуально изучение «армянского вопроса» в планах великих государств на протяжении всей истории. В статье исследован «Восточный вопрос», поднимавшийся с XIX века, цели продвигавших его государств, антитурецкая политика, а также вопрос использования армян в качестве инструмента в этом процессе. После Первой мировой войны армянский вопрос, поднятый европейскими империалистическими государствами, мы видим, что Соединенные Штаты Америки также использовали «армянскую карту» для реализации своих интересов. Включение этого вопроса в повестку дня Соединенные Штаты Америки преследовало больше политические цели. Армяне, укрывшиеся в Соединенные Штаты Америки, намеревались пропагандировать так называемый «геноцид армян» и искать себе родину на чужих землях. В результате анализа можно сделать вывод, что российские правящие круги использовали эту авантюристическую карту для усиления и получения преимуществ на Балканах и Востоке, обещая даже создать «Турецкую Армению» на турецкой земле. Потому что царская Россия намеревалась использовать армян как точку опоры и в конечном итоге завладеть богатствами Кавказа и расшириться на Восток. Отсюда можно сделать вывод, что главным основоположником этой политики, которую называют восточной политикой, был российский император Петр I. Сегодня «Восточный вопрос» и составляющие его «армянские вопросы» занимают важное место в политике великих держав. В ходе проведенного исследования были изучены работы различных авторов, написанные на данную тему, и проведен сравнительный анализ представленной информации.

Делается вывод, что вопросы, связанные с армянами, поднятые в рамках «Восточного вопроса», являются фиктивными и используются для продолжения своей национальной идентичности для армян, проживающих в западных странах. Ничего кроме активности ни региону, ни самим армянам этот вопрос не принес.

**Ключевые слова**: *Османская империя, армянские организации, великие державы, восточный вопрос, геополитика*

***Summary***

***Nigar Gasimova***

***The "Eastern Question" Plan of the Great Powers and the Armenians***

From history until the present day, the “eastern question” was the main concept of the Ottoman and Turkish policies of the great powers. The Armenians, who played the role of an instrument in the impleme-ntation of the” eastern question", still occupy a place in the plans of various states today. From this point of view, the study of the “Armenian question” in the plans of major states from history is of great importance. The article examines the “Eastern question”, the goals of the states that put it forward, anti-Turkish policies, and the use of Armenians as an instrument in this process since the XIX century. The Armenian question posed by the imperialist states of Europe after the 1st World War, we see the use of the “Armenian card” by the United States to realize its interests. The raising of this issue by the United States had more political goals. Bringing this issue to the agenda by the EU had more political purposes. Armenians, on the other hand, took refuge in the USSR, intending to introduce the "Armenian genocide" and to establish a homeland for themselves in their lands. As a result of the analysis, it can be concluded that the Russian magistrates took advantage of this avant-garde card to gain control and gain the upper hand in the Balkans and the East, and even in Turkey. They promised to create "Turkish Armenia" in their lands because Tsarist Russia intended to use the Armenians as a staging point and eventually seize the wealth of the Caucasus and expand towards the East. In conclusion, the main founder of this policy called Eastern politics, was the Russian emperor Peter I. Today, the "Eastern question" and its derivative part, the "Armenian questions", have an important place in the politics of major states. During the investigations carried out, the works of various authors on this subject were studied and the information presented was comparatively analyzed.

The conclusion is that the questions related to the Armenians put forward within the framework of the "Eastern question" are fabricated and they destroy the national identity of the Armenians living in the foreign countries. It is used to continue. This issue has brought nothing but chaos to the region and the souls of the Armenians.

**Key words**: *Ottoman, Armenian organizations, major states, Eastern question, geopolitics*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.